UOT 330.341.1

Aytən Faris qızı ƏBDÜRRƏHMANOVA
AR Elm və Təhsil Nazirliyi
İqtisadiyyat İnstitutu, elmi işçi, i.f.d.
e-mail: ayten.abdullayeva1995@mail.ru
https://doi.org/10.30546/4.71.730.02.2026.040

AZƏRBAYCAN RESPUBLİKASININ EMAL SƏNAYESİNDƏ İNNOVASİYA SAHİBKARLIĞININ SƏMƏRƏLİ TƏŞKİLİNİN İQTİSADİ METOD VƏ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Xülasə

Tədqiqatın məqsədi – innovasiyayönümlü iqtisadiyyata sürətli keçidi təmin etmək üçün emal sənayesində innovasiya sahibkarlığının səmərəli təşkili və idarə edilməsini təmin etməyə imkan verə biləcək nəzəri-metodoloji və praktiki tövsiyələrin işlənib hazırlanmasından ibarətdir**.**

Tədqiqatın metodologiyası – mövcud normativ-hüquqi bazanı əsas götürərək beynəlxalq təcrübəyə baxılmış,müqayisəli təhlil, qruplaşdırma metodlarından istifadəyə üstünlük verilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti – dünyada və ölkəmizdə hazırkı vəziyyəti nəzərə alaraq emal sənayesində innovasiya sahibkarlığını səmərəli təşkil etməkdir.

Tədqiqatın nəticələri - İnnovasiya sahibkarlığının dövlət tənzimlənməsinin forma və metodlarının beynəlxalq təcrübəyə uyğunlaşdırılmasına ehtiyac vardır. Emal sənayesinin innovativ inkişafı üçün məqsədli dövlət proqramının işlənilməsi və həyata keçirilməsi bütünlükdə sahənin innovasiya potensialını gücləndirmiş olacaqdır. Beynəlxalq təcrübədə texnologiyaların transferi və kommersiyalaşdırılması, bununla əlaqədar xarici investisiyaların ölkəyə cəlb edilməsində klasterlərin formalaşması və inkişafı mühüm rol oynayacaqdır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi -Azərbaycanın emal sənayesinin sıx kooperasiya əlaqələri olan alt sahələrdə yaradılması klasterlərin orada innovasiya aktivliyinin, ixrac imkanlarının artmasına, investisiya imkanlarının yaxşılaşdırılmasına, məqsədli layihələrin və proqramların həyata keçirilməsinə, innovasiya fəaliyyətinin şaxələndirilməsinə, innovativ infrastrukturun inkişafına, qalıq məhsulun həcminin minimuma endirilməsinə, subyektlərin maliyyə dayanıqlığının təmin edilməsinə, kadr potensialından səmərəli istifadəyə və innovasiya sahibkarlığının innovativ inkişaf strategiyasının işlənməsi və həyata keçirilməsinə imkan vermiş olacaqdır.

Açar sözlər: emal sənayesi, innovasiya sahibkarlığı, klaster, beynəlxalq təcrübə.

Giriş

Son 25 ildə Azərbaycanda uğurla həyata keçirilən sistemli sosial-iqtisadi islahatlar milli iqtisadiyyatın davamlılığının, onun maliyyə təminatının güclənməsinə və sürətlə müasirləşməsinə, qlobal dəyər zəncirinə inteqrasiyanın sürətlənməsinə və nəhayət, bunların nəticəsi olaraq innovasiya yönümlü inkişafa hədəflənmişdir. Qeyd edək ki, 2025-ci ilin “Qlobal İnnovasiya İndeksi” üzrə Azərbaycanın reytinqi 2024-cü illə müqayisədə 2025-ci ildə 94-cü yerdə, “innovasiya resursları” alt indeksi üzrə üç pillə yaxşılaşaraq 76-cı yerdə qərarlaşıb. Bu irəliləyişə ölkədə aparılan infrastruktur islahatları, makroiqtisadi sabitlik, əmək bazarının təşkili, sosial sferalarda İKT-dən istifadə, enerji təhlükəsizliyi sahələrində görülən işlər nəticəsində nail olunmuşdur **(13)**. Əlbəttə ki, Azərbaycan daha yaxşı mövqedə olmaq üçün potensiala malikdir.

Ölkənin emal sənayesinin sahibkarlıq subyektlərində innovasiya məhsulunun xüsusi çəkisinin beynəlxalq səviyyədə tövsiyə edilən astana həddindən kəskin şəkildə aşağı olması, həmin prosesə çoxsaylı təşkilati-iqtisadi, texniki-texnoloji (istehsal) amillərin mənfi təsir göstərdiyini qaçılmaz edir.

Onlardan birincisi, AKDSK-nın hər il orta və iri sahibkarlıq subyektlərinin xətti rəhbərləri və mütəxəssisləri arasında apardıqları sorğu, digəri isə tərəfimizdən tərtib edilən xüsusi anketin

köməyi ilə keçirdiyimiz sosioloji tədqiqatdır.

Onların məntiqi nəticəsində amillərin xarakterinə görə qruplaşdırılması zamanı müəyyən edilmişdir ki, 2010-2023-cü illərdə orta və iri sahibkarlıq subyektlərinin innovasiya aktivliyinə mane olan amillərin orta statistik səviyyəsinin 55,4% - iqtisadi; 28,4% - istehsal və 16,2 % isə digər təşkilati məzmuna malikdir.

Emal sənayesi üzrə rəyi soruşulanların 27,2%-i innovasiyaların tətbiqinə mane olan mühüm iqtisadi amilin müəssisənin öz pul vəsaitinin olmaması, 17,9%-i yeniliklərin dəyərinin yüksək olması, 14,4%-i dövlət tərəfindən maliyyə yardımının kifayət qədər olmaması; 15,0%-i yüksək iqtisadi risk amilini,10,4%-i yeni istehsal edilən məhsullara çəkilən xərclərin ödəmə müddətinin uzun olmasını da qeyd etmişlər.

Tərəfimizdən 50-dən çox sahibkarlıq subyektində apardığımız sosioloji tədqiqatların nəticələri göstərdi ki, onun əsasını aşağıdakılar şərtləşdirir:

- yeni ideyaların axtarılması və həyata keçirilməsi üçün maliyyə mənbəyinin tapılması və onun əsasında rəqabətqabiliyyətli, innovasiyaya hədəflənən strukturun yaradılması [12];
- yeni imkanların həyata keçirilməsi üçün maliyyə resurslarının axtarılması;
- investisiya və innovasiyalardan səmərəli istifadə məqsədilə fəaliyyət planının həyata keçirilməsi [8, s.93-98].

Fikrimizcə, həmin boşluqların aradan qaldırılması və innovasiya sahibkarlığının inkişafını təmin etmək üçün yaxın gələcəkdə əsas diqqət innovasiya sahibkarlığının dövlət tənzimlənməsinin, mövcud forma və metodlarının beynəlxalq təcrübəyə uyğunlaşdırılmasına, innovasiya risklərinin idarə edilməsi mexanizminin təkmilləşdirilməsinə, eləcə də müvafiq inkişaf strategiyasının formalaşdırılmasına yönəldilməlidir.

İnnovasiya sahibkarlığının dövlət tənzimlənməsinin forma və metodlarının beynəlxalq təcrübəyə uyğunlaşdırılması

Azərbaycanda dövlətin innovasiya siyasəti və innovativ iqtisadiyyatın qurulmasının vacibliyi “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” və onların icrasına hədəflənən müvafiq Strategiyada [1;2], qeyri-neft sektorunun davamlı və ölkənin perspektiv inkişafı məqsədilə “Təhsil-tədqiqat-innovasiya” formatında inkişafın təşviqi və universitet klasterlərinin yaradılmasının vacibliyi: universitet klasterinin yaradılması, “təhsil-elm-istehsal” əlaqələrinin səmərəliliyinin yüksəldilməsi məsələləri ön plana çəkilmişdir [2]. Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsində isə 2025-ci ildən sonrakı dövr üçün MİS-in təkmilləşdirilməsi kontekstində - Qanunvericilik *bazasının yeniləşdirilməsi*; innovasiya fəaliyyətinin stimullaşdırıcı mexanizminin işlənib hazırlanması; innovasiyayönümlü regional klasterlərin yaradılması; innovasiya strukturunun təkmilləşdirilməsi kimi vacib prioritetlər nəzərdə tutulmuşdur. Göründüyü kimi, həmin prioritetlər içərisində sahibkarlığın dövlət tənzimlənməsi kontekstində bir sıra təşviq mexanizmlərinin işlənib hazırlanmasının vacibliyi ön plana çəkilmişdir:

- yüksək texnologiya parklarında və biznes inkubatorlarında innovasiya fəaliyyətinin stimullaşdırılması;
- həm dövlət qurumlarının nəzdində, həm də rezidentlər tərəfindən yaradılan yüksək texnologiya parklarında və biznes inkubatorlarında fəaliyyət göstərən şirkətlərə güzəştlərin tətbiq edilməsi;
- dövlət innovasiya siyasətini müəyyənləşdirən və icra edən əlaqələndirici qurumların fəaliyyətinin koordinasiyası;
- vençur kapitallaşması fəaliyyətinin aparılması üçün qanunvericilik bazasının təkmilləşdirilməsi;
- innovasiyayönümlü startup layihələrinin maliyyələşdirilməsi üçün vençur fondların, eləcə də xarici investorların cəlb edilməsi üçün təşviqedici tədbirlərin həyata keçirilməsi;
- alternativ maliyyə vəsaitinin və bilik transferinin sistematik qaydada həyata keçirilməsi;
- beynəlxalq standartlar və idarəetmə prosedurları ilə uyğunluğun daha da artırılması [3; s. 75-78].

Fikrimizcə, dövlətin dəstəyi ilə yaradılacaq yeni maliyyələşmə mexanizmlərinin (startupların, vençur fondlarının, angel (mələk) investorların, etimad fondlarının və s.) emal sanayesi müəssisələrində tətbiq edilməsi, orada zəruri innovasiya infrastrukturunun yaradılması nəticə etibarı ilə innovativ sahibkarlığın inkişafına təkan vermiş olacaqdır. Azərbaycanda innovasiya sahibkarlığının davamlı inkişafına təminat yaratmaq üçün “İnnovasiya fəaliyyətinin tənzimlənməsi və inkişafı haqqında” Qanunun qəbul edilməsi və emal sənayesinin əsas alt sahələri üzrə uzunmüddətli dövrü əhatə edən innovativ-inkişaf Proqramlarının işlənilməsi və həyata keçirilməsi vacibdir. Həmin proqramda iqtisadiyyatın innovativ inkişaf prioritetlərinin elementləri nəzərə alınmalı və proqrama daxil edilən tədbirlərin icrası kompleks və sistemli yanaşmaya söykənməli və dövlətin innovasiyaya hədəflənən ümumi inkişaf strategiyasını özündə ehtiva etməlidir. Burada başlıca məsələ dövlətin innovasiya strategiyası ilə innovasiya bazarı arasında qarşılıqlı və üzvi əlaqənin yaradılmasıdır.

Azərbaycan hökuməti emal sənayesinin spesifik xüsusiyyətləri nəzərə alınmaqla iqtisadiyyatın elmi innovasiya aktivliyinin yüksəldilməsi üzrə sərt himayəçilik tədbirlərinin həyata keçirilməsini nəzərdə tutur. Bu başadüşüləndir, ən azı ona görə ki, Azərbaycanda emal sənayesinin texniki-texnoloji səviyyəsi rəqabətqabiliyyətli və idxalı əvəz edən çoxçeşidli məhsul istehsal etməyə malik deyildir. Eyni zamanda elmi-tədqiqatların istehsalatda tətbiqi prosesi ləng həyata keçirilir. Başqa sözlə, elmlə istehsalat arasında birbaşa üzvi əlaqə hələ də tam təşkil edilməmişdir. “Elm-təhsil-istehsalat-bazar” strateji alyansının fəaliyyəti üçün yeni hüquqi çərçivə qaydası formalaşdırılmalıdır ki, yeni təşkilati-iqtisadi mexanizm çərçivəsində Azərbaycan iqtisadiyyatı inkişaf modeli müstəvisində formalaşa bilsin. Buna nail olmaq üçün isə iqtisadi inkişafın hərəkətverici qüvvələri ilə mikroiqtisadi aspektdə inklüziv inkişafı arasında sıx üzvi əlaqə yaradılmalıdır ki, iqtisadi şaxələndirmə və rəqabət üçün zəruri olan startup dəyişikliyini həyata keçirmək mümkün olsun.

Deməli, sahibkar elə qabiliyyətə malik olmalıdır ki, qarşıda duran bütün funksiyaları uğurla və daha az xərclə həyata keçirərək bazar iqtisadiyyatının inkişaf edən subyektlərindən birinə çevrilmiş olsun. Həmin qabiliyyətin (səriştənin, bacarığın) bir-biri ilə üzvi əlaqədə olan elementlərini aşağıdakı kimi təsnifləşdirmək olar: strateji düşüncə, peşəkarlıq, təşəbbüskarlıq, təşkilatçılıq, mənəvi keyfiyyət, çalışqanlıq və şəxsi mütəşəkkillik.


Ölkədə innovasiyayönümlü iqtisadiyyatın dayağı hesab edilən sahibkarlıq fəaliyyəti və onun davamlılığına təminat yaradan innovasiya-investisiya fəaliyyəti nəticə etibarı ilə müəssisələrdə texnoloji innovasiyaların fasiləsiz həyata keçirilməsini, mövcud məhsulların modernləşdirilməsini, yeni məhsulların istehsalını, satış bazarının genişləndirilməsini, elmi-texniki potensialdan istifadənin stimullaşdırılmasını özündə ehtiva edir. Digər tərəfdən, onu da istisna etmək olmaz ki, innovasiya fəaliyyətinin aktivləşdirilməsinə sahibkar özü maraq göstərməli və elə məhsul (yəni, rəqabətə davamlı) istehsal etməlidir ki, fəaliyyətə yönəldilən investisiyanın ödəmə müddəti qısa zaman kəsiyində təmin edilsin, zəmanətli mənfəət əldə edilsin və toplanmış sərbəst vəsait (kapital) istehsalın daha da genişləndirilməsinə təminat yaratmış olsun.

İnnovasiyayönümlü iqtisadiyyatı formalaşdırmağın başlıca şərti beynəlxalq təcrübə əsasında ölkədə özünün ilkin mərhələsində olan Milli İnnovasiya Sistemini (MİS) yaratmaq və onu inkişaf etdirməkdir.

Dünyanın müxtəlif ölkələrində formalaşan MİS bir-birindən əsaslı şəkildə fərqlənir. Hər bir real şəraitdə MİS-in inkişaf strategiyası dövlətlərin makro-iqtisadi siyasəti, normativ-hüquqi təminatı, birbaşa və yaxud dolayı formada dövlət tənzimlənməsini özündə ehtiva edir.

Tərəfimizdən aparılan araşdırmalar göstərir ki, bu vaxtadək MİS məfhumuna, onun metodologiyasının işlənilməsinə dair yetkin fikir formalaşmamışdır. İnnovativ inkişaf yoluna qədəm qoyan ölkələrin iqtisadiyyatında baş verən dəyişikliklər kontekstində söyləmək olar ki, innovasiya sahibkarlığının dövlət tənzimlənməsinin vacib forması kimi çıxış edəcək MİS-milli sərhədlər çərçivəsində elmi biliklərin və texnologiyaların istehsalı və kommersiyalaşdırılması ilə məşğul olan təşkilati strukturların (sahibkarlıq subyektlərinin, universitetlərin, elmi laboratoriyaların, texnoparkların, inkubatorların, sənaye məhəllələrinin, digər innovasiya infrastrukturunun) qarşılıqlı

əlaqəsinin məcmusudur. Eyni zamanda MİS-hüquqi-maliyyə və sosial xarakterli institutlar kompleksindən ibarət olub, innovasiya prosesinin dinamikliyinə təminat yaradan, milli ənənələrə, köklərə, siyasi və mədəni dəyərlərə söykənən geniş əhatəli mürəkkəb sosial-iqtisadi sistemdir (10).



Şəkil 1: Sərişdəli sahibkarlıq fəaliyyətinin formalaşması və inkişafının prinsipal modeli
Mənbə: müəllif tərəfindən işlənilmişdir.


İnnovasiya sahibkarlığının inkişaf strategiyasının formalaşdırılması

Fikrimizcə, innovasiya aktivliyi beynəlxalq təcrübədə nəzərdə tutulan astana həddindən kəskin dərəcədə aşağı olan emal sənayesində innovativ inkişaf strategiyası formalaşdırılarkən ilk növbədə onun metodoloji bazasının təkmilləşdirilməsi üzrə müvafiq tövsiyələrin işlənilməsinə ehtiyac duyulur. Bu zərurət innovasiya sahibkarlığının təşkili və idarə edilməsində hələ də boşluqların mövcudluğu ilə şərtlənir. Əminliklə hesab edirik ki, həmin strategiyanın formalaşdırılması zamanı

sistemli yanaşmaya üstünlük verilməklə innovasiya sahibkarlığının bütün növlərindən (istehsal, texnoloji, iqtisadi, idarəetmə, marketinq, sosial və ekoloji) bir-birilə qarşılıqlı əlaqədə intellektual kapitalın növlərinin və onların əhatə dairəsinin tələbləri nəzərə alınmaqla istifadə etmək lazımdır.

Sahibkarlıq subyektlərinin innovativ inkişaf strategiyası – sərbəst şəkildə formalaşdırılan strateji məqsədə çatmağın alət və metodu kimi çıxış etməlidir. Belə strategiya müxtəlif mülkiyyət formalarında fəaliyyət göstərən təsərrüfat subyektlərində innovasiyaların fasiləsiz olaraq tətbiqinə hədəflənməlidir. Təcrübədə innovasiya strategiyası strateji idarəetmənin – korporativ, biznes vahidi və funksional səviyyələrində formalaşdırılır. Belə strategiya diffuziya xarakterli olduğundan təsərrüfat subyektlərinin bütün növ strategiyalarına inteqrasiyasını özündə ehtiva edir. Eyni zamanda strateji hədəfə çatmaq özü də müəyyən maneələrlə üzləşir ki, bu da müəssisənin innovasiya potensialına mənfi təsir göstərir. Deməli, innovasiya strategiyasının məzmunu sahibkarlıq subyektinin innovasiya fəaliyyətinin xarakterindən, funksional və korporativ strategiyalarının qarşılıqlı əlaqəsindən asılıdır.

Bütün bunlar onu göstərir ki, sahibkarlıq subyektlərində zəruri innovativ dəyişiklik məhsulun, texnologiyanın, tələbin həyat tsikli kontekstində aparılmalıdır. Bu isə innovasiya strategiyasının müəssisənin ümumi strategiyasının tərkibinə daxil olunmasını qaçılmaz edir və nəticədə innovasiya prosesi ilə strateji inkişaf məqsədləri arasında üzvi əlaqə yaranır ki, bunun da modelini 2 saylı şəkildəki kimi təsvir etmək olar.



Şəkil 2: Sahibkarlıq subyektlərinin innovativ inkişafının idarəetmə modelinin prinsipal sxemi

Mənbə: müəllif tərəfindən işlənilmişdir.

Sahibkarlıq fəaliyyəti ilə məşğul olan orta və iri (o cümlədən, müştərək) müəssisələrin innovasiya strategiyasının işlənilməsi zamanı aşağıdakıların diqqətdə saxlanılması vacibdir:

- Həqiqəti özündə ehtiva edən elmi-texniki informasiyalar;
- İnnovasiya sahibkarlığının davamlı inkişafına imkan verən elmi-texniki və proqram təminatı;
- Elmi-texniki tədqiqatların və ekspertizaların nəticələri;
- İnnovasiya sahibkarlığının inkişafına təminat yaradan normativ-hüquqi baza;


- İnnovasiya sahəsi üçün peşəkar menecerlərin hazırlanması və onların ixtisaslarının artırılması sisteminin təşkili;
- İnnovasiya fəaliyyətinin, onun infrastrukturunun və idarə edilməsi sistemlərinin qarşılıqlı və səmərəli təşkili məqsədilə mütərəqqi informasiya texnologiyaları sisteminin yaradılması;
- Daxili və xarici bazarlarda oxşar məhsula nisbətən yeni məhsulun yaradılması və onun rəqabət üstünlüyünə nail olmaq;
- Müəssisədə istehsal edilən məhsulların və tətbiq olunan texnika və texnologiyaların sistemli şəkildə təkmilləşdirilməsi.

Məqsədli innovasiya layihələrinin işlənilməsi və həyata keçirilməsi

Hesab edirik ki, Azərbaycanın emal sənayesinin və onun altsahələrinin (müəssisələrin) aşağı texniki-texnoloji durumu və zəif innovasiya aktivliyi şəraitində məqsədli innovasiya-investisiya layihələrinin işlənilməsi və həyata keçirilməsi innovativ inkişaf strategiyasının vacib elementindən birini təşkil eləməlidir. Sahibkar firmaların idarə edilməsi sistemində layihələrin tətbiqinin səmərəli olması xarici ölkələrin təcrübəsində də təsdiqlənmişdir. Bu onunla izah edilir ki, layihə yanaşması bütün digər yanaşmaların üstün cəhətlərilə uzlaşır. İnnovasiya layihələri müəyyən müddətdə başa çatdığı üçün onun hər həyat tsiklində iqtisadi qiymətləndirilməsi, iştirakçının şəxsi payı (imkanı), işinin səmərəliliyini müəyyən etmək mümkün olur ki, bu da idarəetmə prosesinin optimallaşdırılmasına imkan yaradır.

Layihələrin idarə edilməsi üzrə Beynəlxalq Assosiasiyasının məlumatlarına görə layihələrin idarə edilməsi alətlərinin təcrübədə tətbiqi zamanı 20-30% vaxta, 15-20% isə çəkilən xərclərə qənaət edilir [13]. Layihələr əsasında idarəetmənin ən əsas üstünlüyü onun son nəticəyə hədəflənməsi, innovasiyayönümlülüyü, ölçülə bilməsi və fasiləsiz olaraq sifarişçi ilə müştərinin (alıcının) qarşılıqlı əlaqədə olunmasıdır.

Azərbaycanın emal sənayesində fəaliyyət göstərən bütün müəssisələrin yalnıız 10%-i iri və 21,6%-i - orta müəssisələrdir və orada sərbəst funksional idarəetmə orqanının (bizim misalda layihələrin idarə edilməsi şöbəsinin) yaradılması çox vaxt iqtisadi cəhətdən səmərəli olmur, onda həmin sahibkarlıq subyektlərində layihə yanaşmasını həyata keçirmək üçün innovasiya infrastrukturunun imkanlarından istifadəyə üstünlük verilməlidir. Deməli, həmin subyektlərin innovasiya fəaliyyətinin spesifik xüsusiyyətləri nəzərə alınmaqla özəyi işçi qrupundan ibarət layihələrin idarə edilməsi modeli [11] (və yaxud strukturu) işlənilməlidir. Həmin modelin prinsipal sxemi tərəfimizdən aşağıdakı kimi göstərilmişdir. (şəkil 3)



Şəkil 3: Kiçik və orta sahibkarlıq subyektlərində innovasiya infrastrukturunun resurslarını cəlb etməklə layihə yanaşmasının tətbiqi prosesinin modeli


Mənbə: müəllif tərəfindən işlənilmişdir.

Fikrimizcə, sahəyə xarici investisiyaların cəlb edilməsi prosesi dinamik xarakter almalıdır. Digər tərəfdən, son beş ildə emal sənayesində əsas kapitala yönəldilən investisiyanın cüzi bir hissəsi texnoloji innovasiyalara sərf edilmişdir [7; s.55; 60]. Burada başqa bir məsələni də qeyd etmək vacibdir. Belə ki, bu vaxtadək Azərbaycanın sənaye sektorunda sürətləndirilmiş amortizasiya normaları tətbiq edilmir, bu dərədə hətta müvafiq dövlət sənədi belə yoxdur. Həmin normalardan yalnız xarici investisiyalı müəssisələrdə istifadə edilir. Adı çəkilən normanın olmaması emal müəssisələrində ƏİF-in aktiv yeniləşməsinə mənfi təsir göstərərək innovasiya fəaliyyətinin intensiv təşkilinə zərbə vurur. Beynəlxalq təcrübədə həmin mənfi amillərin təsirindən yaxa qurtarmaq üçün konseptual yanaşmaya, yəni texnologiyaların transferi və kommersiyalaşdırılması sistemindən istifadəyə geniş yer ayrılır. Deməli, innovasiya sahibkarlığının səmərəli təşkili üçün Azərbaycanda daha mütərəqqi və sahibkarlıq subyektlərinin fəaliyyətində önəmli hesab edilən innovasiya infrastrukturunun yaradılmasına və onun şəbəkəsinin genişləndirilməsinə zəruri ehtiyac duyulur.

İnnovasiya strukturunun yaradılması

Fikrimizcə, həmin struktur kimi - Texnologiyaların Transferi Mərkəzi (TTM) çıxış edə bilər. Belə mərkəzlər texnoparkların, investisiya Holdinqlərinin, eləcə də universitetlərin tərkibində yaradıla bilər.

Beynəlxalq təcrübəyə əsaslanaraq TTM-in funksional modelini sxem şəklində aşağıdakı kimi təsvir etmək olar. (Şəkil 4)



Şəkil 4. Texnologiyaların Transferi Mərkəzinin funksional modelinin prinsipal sxemi
Mənbə: müəllif tərəfindən işlənilmişdir.

Ölkənin iqtisadi sistemində TTM-in yaradılması innovasiyayönümlü iqtisadiyyatın inkişafında mühüm rol oynayacaqdır. TTM-in fəaliyyətini səmərəli təşkil etmək üçün aşağıdakı tədbirlərin icrası vacibdir:

- Sistemli yanaşma əsasında sahibkarlıq subyektləri ilə elmi təşkilatlar arasında qarşılıqlı əlaqələrin yaradılması;
- Emal məhsulları istehlakçılarının sayının artırılması; beynəlxalq əlaqələrin genişləndirilməsi;

- Sahibkar firmalarda icrası məqbul hesab edilən innovasiya layihələrinin həyata keçirilməsi çərçivəsində icra orqanları ilə qarşılıqlı əlaqənin möhkəmləndirilməsi;
- İnnovasiya prosesinin tam tsiklinə dəstək üçün təkmil xidmət modellərindən istifadə edilməsi.

Yaradılacaq TTM-in fəaliyyəti çərçivəsində institusional mühitin formalaşması, innovativ inkişaf üzrə dövlət proqramlarının icrası, elmlə biznes arasında qarşılıqlı əlaqənin ehtiyatlarından istifadə, ixtiraların, innovasiyaların, patent-lisenziya və marketinq fəaliyyətinin stimullaşdırılması, ixracatçıların iqtisadi maraqlarının qorunması və onlara dəstək nəticə etibarı ilə emal sənayesinin texnoloji modernləşdirilməsinə və innovasiya məhsullarının istehsal həcminin artırılmasına imkan verməklə yanaşı innovasiya sahibkarlığının intensivliyinə də öz müsbət təsirini göstərmiş olacaqdır.

Bütünlükdə klasterlərin yaradılması və inkişafı iştirakçı kompaniyaların xərclərinin düzgün idarə edilməsi nəticəsində yüksək sinerji effekti ilə səciyyələnir. Odur ki, aşağıdakı emal sahələri üzrə innovasiyayönümlü klasterlərin yaradılması təklifini irəli sürürük: aqro-klasterlər, kənd təsərrüfatı avadanlıqlarının istehlak klasterləri, ağac emalı üzrə klasterlər, metallurgiya sferası üzrə klasterlər, bio-texnologiya klasterləri, şərabçılıq klasterləri, ayaqqabı istehsalı üzrə klasterlər, elm və təhsil klasterləri, elektrotexnika avadanlıqları istehsalı üzrə klasterlər, neft maşınqayırma klasterləri, yüngül sənaye klasterləri, ekoloji klasterlər, logistika klasterləri, emal sənayesi müəssisələrinə xidmət edən digər klasterlər [14].

Şübhəsiz söyləmək olar ki, həmin təyinatlı klasterlərin yaradılması alt emal sahələrində innovasiya sahibkarlığının inkişafına öz töhfəsini vermiş olacaqdır.

Nəticə və təkliflər

Fikrimizcə, aparılan araşdırmaların məntiqi nəticəsi kimi aşağıdakı tövsiyələri irəli sürmək olar:

- Uzaq xarici və MDB ölkələrinin innovasiya sahibkarlığının maliyyələşdirilməsi, stimullaşdırılması, innovasiyaların tətbiqi mexanizmi inkişaf konsepsiyası, modelləri, infrastrukturun formalaşması, texnologiyaların transferi, innovasiyaların kommersiyalaşdırılması və sığortalanması üzrə iş təcrübələrindən ölkəmizin emal sənayesində istifadəsi yüksək sosial-iqtisadi nəticələr verə bilər;
- Ölkədə Milli İnnovasiya Sisteminin qurulması, innovasiya siyasətinin “təhsil-tədqiqat-innovasiya” istiqamətinə, yaxın gələcəkdə 5-6-cı nəsil texnoloji sistemə keçid, klasterləşmə prosesinin intensivləşdirilməsi, inkişaf strategiyası ilə innovasiya bazarı arasında qarşılıqlı əlaqənin yaradılması, qeyri-neft emal məhsullarının həcminin və çeşidinin artırılması bütünlükdə innovasiya yönümlü iqtisadiyyatın dinamik inkişafına təminat yarada bilər;
- Emal sənayesinin innovativ inkişafı üçün məqsədli dövlət proqramının işlənilməsi və həyata keçirilməsi, zəruri hallarda eyni adlı proqramın kooperasiya əlaqələri sıx olan emal sanayesinin alt sahələri üzrə tərtib olunub icrasının təmin edilməsi nəticə etibarı ilə sahənin dayanıqlı inkişafına təminat yaradacaqdır;
- İnnovasiyayönümlü məhsul istehsal edən emal müəssisələrinə dövlət sifarişinin verilməsi qaydalarının rəsmiləşdirilməsi, eləcə də idxalı əvəz edən və ixracyönümlü qeyri-neft məhsullarının istehsalı prosesinə kiçik və orta müəssisələrin iştirakını təşviq etməklə ixracın şaxələndirilməsinin təmin edilməsi;
- İnnovasiya layihələrinin icrasına dəstək məqsədilə zəmanət fondunun formalaşdırılması və vençur kapitalından, eləcə də innovasiya sahibkarlığının inkişafı üçün risklərin azaldılmasının təşkilati-iqtisadi mexanizmlərindən istifadəyə üstünlük verilməsi;
- Texnologiyaların transferi və kommersiyalaşdırılması vasitəsi ilə xarici investisiyaların ölkəyə cəlb edilməsində klasterlərin formalaşması və inkişafı mühüm rol oynamaqla yanaşı iştirakçı kompaniyaların xərclərinin düzgün idarə edilməsi nəticəsində yüksək sinerji effekti ilə səciyyələnir;
- Yeni növ məhsul istehsal edən özəl emal müəssisələrinə dövlət sifarişinin verilməsi qaydalarının rəsmiləşdirilməsi;

- Subyektlərin fəaliyyətində risklərin azaldılmasının təşkilati-iqtisadi mexanizmlərinin tətbiqinə üstünlük verilməsi;
- İnnovasiya subyektlərinin maliyyələşdirilməsi prosesində xarici ölkələrin (ABŞ, Böyük Britaniya, Niderland və s.) iş təcrübəsindən istifadə etməklə, pensiya fondları və sığorta kompaniyalarının rolunun yüksəldilməsi.

ƏDƏBİYYAT

1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. (https://president.az/articles/50474)
2. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası. Bakı, 2022, 82s. (https://e-qanun.az/framework/50013)
3. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Bakı, 2016, 96s. (https://president.az/)
4. “Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 06 oktyabr 2016-cı il tarixli Fərmanı, Bakı, “Xalq qəzeti”, 07 oktyabr 2016-cı il.
5. “Azərbaycan İnvestisiya Holdinqinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 07 avqust 2020-ci il tarixli Fərmanı (https://Prezident.az/articles/40356)
6. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində “Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi” publik hüquqi şəxsin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 06 yanvar 2021-cı il tarixli Fərmanı, “Xalq qəzeti”, 07 yanvar 2021-ci il.
7. Azərbaycanın sənayesi. Statistik məcmuə. Bakı, “DSK”, 2019, 250s.; 2020, 164s.; 2022, 212s.; 2023, 215s.; 2024,283s. (https://www.stat.gov.az/)
8. Əbdürrəhmanova A.F. Azərbaycanda sahibkarlıq subyektlərinin innovasiya fəaliyyətinin sosioloji tədqiqatların nəticələri əsasında qiymətləndirilməsi//AMEA-nın Xəbərləri İqtisadiyyat seriyası. Bakı, “Elm” №3, 2020, s.93-98. (https://economics.org.az/images/fotos/ xeberler_pdf/2020_3/11.Aytan.pdf)
9. “Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 19 sentyabr 2018-ci il tarixli Sərəncamı. “Xalq qəzeti” 20 sentyabr 2018-ci il
10. https://ivo.garant.ru/#/document/58104340
11. https://viewer.rsl.ru/ru/rsl01009814382
12. https://viewer.rsl.ru/ru/rsl01010763732
13. *https://creativeconomy.ru/lib/10066; https:// studopedia.ru/3_166571*
14. Əliyev T.N. Klasterlər: beynəlxalq təcrübə və innovativ inkişaf. Monoqrafiya. Bakı, “Elm və bilik”, 2019, 536s.

Айтен Фарис кызы Абдуррахманова
АР Министерство Науки и Образования
Институт Экономики, научный сотрудник, д.ф.н.
e-mail: ayten.abdullayeva1995@mail.ru

Совершенствование экономических методов и механизмов эффективной организации инновационного предпринимательства в перерабатывающей промышленности Азербайджанской Республики

Резюме

Цель исследования: Основная цель исследования – разработка теоретических, методологических и практических рекомендаций, позволяющих обеспечить эффективную

организацию и управление инновационным предпринимательством в перерабатывающей промышленности для обеспечения скорейшего перехода к инновационно-ориентированной экономике.

Методология исследования: на основе действующей нормативно-правовой базы был проанализирован международный опыт, предпочтение отдано методам сравнительного анализа и группировки.

Прикладная значимость исследования заключается в эффективной организации инновационного предпринимательства в перерабатывающей промышленности с учетом современной ситуации в мире и нашей стране.

Результаты исследования: Необходимо адаптировать формы и методы государственного регулирования инновационного предпринимательства к международному опыту. Разработка и реализация целевой государственной программы инновационного развития перерабатывающей промышленности позволит укрепить инновационный потенциал отрасли в целом. В международной практике формирование и развитие кластеров будет играть важную роль в трансфере и коммерциализации технологий и, в связи с этим, в привлечении иностранных инвестиций в страну.

Оригинальность и научная новизна исследования: создание кластеров в подотраслях перерабатывающей промышленности Азербайджана с тесными кооперационными связями позволит повысить инновационную активность, экспортные возможности, улучшить инвестиционные возможности, реализовать целевые проекты и программы, диверсифицировать инновационную деятельность, развить инновационную инфраструктуру, минимизировать объём остаточной продукции, обеспечить финансовую устойчивость предприятий, эффективно использовать человеческие ресурсы, а также разработать и реализовать инновационную стратегию развития инновационного предпринимательства.

Ключевые слова: перерабатывающая промышленность, инновационное предпринимательство, кластер, международный опыт.

Ayten Faris Abdurrakhmanova
AR Ministry of Science and Education
Institute of Economics, Research Fellow, Ph.D.
e-mail: ayten.abdullayeva1995@mail.ru

Improvement of economic methods and mechanisms of effective organization of innovation entrepreneurship in the processing industry of the Republic of Azerbaijan

Summary

Purpose of the study - The main purpose of the study is to develop theoretical, methodological and practical recommendations that will allow ensuring the effective organization and management of innovation entrepreneurship in the processing industry in order to ensure a rapid transition to an innovation-oriented economy.

Research methodology - based on the existing regulatory legal framework, international experience was reviewed, and comparative analysis and grouping methods were preferred.

The applied significance of the research is to effectively organize innovative entrepreneurship in the processing industry, taking into account the current situation in the world and in our country.

Research results- There is a need to adapt the forms and methods of state regulation of innovative entrepreneurship to international experience. The development and implementation of a targeted state program for the innovative development of the processing industry will strengthen the innovation potential of the sector as a whole. In international practice, the formation and development of clusters will play an important role in the transfer and commercialization of technologies, and in this regard, in attracting foreign investments to the country.

Originality and scientific novelty of the research - the creation of clusters in sub-sectors of the processing industry of Azerbaijan with close cooperative relations will allow for an increase in innovation activity, export opportunities, improvement of investment opportunities, implementation of targeted projects and programs, diversification of innovation activities, development of innovative infrastructure, minimization of the volume of residual products, ensuring financial sustainability of entities, efficient use of human resources, and development and implementation of an innovative development strategy for innovative entrepreneurship.

Key words: processing industry, innovative entrepreneurship, cluster, international experience.